“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 1 iyul 2015-ci il | № 50 (1966) | Qiyməti 25 qəpik

# “Bakı-2015” Birinci Avropa Oyunlarının möhtəşəm bağlanış mərasimi

## Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib





***Son 17 gün ərzində dünya idman ictimaiyyətinin gözü Azərbaycanda idi. Bakı bu 17 gündə tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına layiqincə ev sahibliyi etdi. Burada gördükləri yüksək təşkilatçılıq, xalqımızın səmimi qonaqpərvərliyi, mədəni dəyərləri minlərlə idmançını, nümayəndə heyətlərinin üzvlərini, bu Oyunları televiziya ekranlarından izləyən milyonlarla tamaşaçının qəlbini riqqətə gətirdi.***

Möhtəşəm idman bayramı təntənəli bağlanış mərasimi ilə sona çatdı. Mərasimin keçirildiyi, Birinci Avropa Oyunlarının yadigarı olan Bakı Olimpiya Stadionu yenə də izdihamlı idi. "Bir çox ev sahibi şəhərlər bu cür tədbirlərə hazırlıq üçün beş-yeddi il sərf edir. Bakı isə cəmi otuz aylıq qısa zaman kəsiyində bu cür möhtəşəm qitə miqyaslı Oyunlara yüksək səviyyədə ev sahibliyi etməklə Avropa Olimpiya hərəkatını şərəfləndirdi", - Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin bu sözləri həqiqətən qürurvericidir. Onun qeyd etdiyi kimi, iyunun 17 günü möhtəşəm idman bayramı və Birinci Avropa Oyunlarına layiq tədbir kimi yadda qaldı.

Bakı Olimpiya Stadionunda qurulan əsas səhnə açılış mərasimində olduğu kimi, bu dəfə də bənzərsizliyi, genişliyi ilə diqqəti çəkirdi. Əsas və yardımçı səhnələr buta formasında işlənib və LED diodları ilə işıqlandırılıb.

Bədii rəhbər Ceyms Hedli bağlanış mərasiminin ideya və məzmununu belə ifadə edib: Mərasim ənənəvi və müasir Azərbaycan mədəniyyətinin vəhdətini nümayiş etdirərək diqqəti gələcəyə yönəldir. Biz keçmişin müasir dövrü necə formalaşdırdığının və gələcəyə necə təsir göstərdiyinin şahidi oluruq. Müasir dövrün musiqisi, rəqsi, memarlığı milli ənənələrdən qaynaqlanır və yaranan ahəngdarlıq bizi ilhamlandırır. İlk dəfə olaraq Avropa Oyunları 50 ölkəni yarış meydanlarında bir araya gətirdi. Bu axşam Oyunların uğurunu və idmançıların zəfərini qeyd edirik. Odlar Yurdu Azərbaycan öz alovunu dünya ilə bölüşdü. Onun işığı hamımızın qəlbində yaşayır.

Bağlanış mərasimi stadionda şeypurların səsləndirilməsi ilə başladı. Nəzərlər Prezident lojasına yönəldi. Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini, Bolqarıstan Prezidenti Rosen Plevneliyevi, Rusiya Dövlət Dumasının sədri Sergey Narışkini, Lixtenşteyn parlamentinin sədri Albert Friki, Avropa Olimpiya Komitəsinin, Beynəlxalq Olimpiya Komitəsinin nümayəndələrini, Avropa Olimpiya ailəsinin üzvlərini hərarətli alqışlarla salamladılar.

Azərbaycan müxtəlif rənglərin, insanların, ənənələrin vəhdətindən ibarət zəngin xalça təsiri bağışlayır. Xalçanın ilmələri və naxışları kimi onların da hər biri fərqlidir. Buna baxmayaraq, fərqlilik onları gözəl bir əsər yaratmaq məramı ətrafında birləşdirir.

Yaradıcı heyət "Oyanış" adlandırılan mərasimi məhz bu ideya əsasında qurub. Stadiondakı ekranlarda rəngbərəng xalça ilmələri canlanır. Görkəmli rəssam Faiq Əhmədin bənzərsiz xalçalarının naxışı 10-dan 0-dək rəqəmlərə çevrilir və geriyə sayım başlayır. Sıfır göründüyü an işıq əsas səhnədəki iki müğənninin üzərinə düşür. Xor onlara qoşularaq Azərbaycanın Dövlət himnini yeni simfonik aranjemanda ifa edir.

Azərbaycanın Dövlət bayrağı stadiona gətirilir və Avropa Olimpiya Komitəsinin bayrağının yanında ucaldılır. Bu məqamda idmançılarımızın ilk Avropa Oyunlarında qazandıqları qələbələrin şərəfinə dövlət bayrağımızın 21 dəfə yüksəyə ucaldığını, Dövlət himnimizin səsləndiyini bir daha qürur hissi ilə xatırlayırıq.

Mərasimin "Transformasiya" adlanan başlanğıc hissəsi Azərbaycan musiqisi, rəqsi və memarlığının müasirliyin enerjisi və gücü ilə zənginləşdirilmiş ənənələrini tərənnüm edir. Ətrafa xalq musiqisinin sədaları yayılır və ona müasir müğənnilər səs verir. Xalq rəqslərinin və müasir rəqslərin ifaçıları bir-birilərinin ritm və enerjisinə cavab verirlər. Rəqqasələr əsas səhnədə dövrə vurduqca paltarları ətrafa şəfəq saçaraq gözəl naxışlar yaradır.

Səhnədəki üç nəhəng heykəl fırlandıqca musiqinin ritmi dəyişir. Açılan hər bir ətəyin uclarından 24 ifaçı tutur. Musiqi rok sintezinə çevrildikdə isə ənənəvi ətəklər müasir parlaq naxışlara dönür. Bunun ardınca heykəlləri hərəkətə gətirən 128 ifaçı görünür. Səhnədə dövrə vuran yüzlərlə rəqqasə mozaika formasında naxışlar yaradır. Stadionda qurulan "Qız qalası"nın divarları aralanır və tamaşaçının gözü qarşısında Bakının yeni rəmzi olan "Alov qüllələri" canlanır. Bu səhnə müasirliyin keçmişdən qaynaqlandığını əyani şəkildə təcəssüm etdirir.

Arenada "Çal-oyna" xalq mahnısının melodiyası eşidilir. Azərbaycan Dövlət Uşaq Filarmoniyası xorunun ifa etdiyi bu mahnı 17 gün ərzində qəlbimizi idman ustalığı və cəsarəti ilə fəth edən 6 min atletin şərəfinə səslənən bayram havası təsiri bağışlayır. Mahnının sədaları altında stadiona bayraqdaşıyanlar daxil olurlar. Onlar iki cərgədə qarşı-qarşıya hərəkət edirlər. Bir cərgənin önündə Olimpiya Oyunlarının vətəni Yunanıstanın, digərinin önündə ilk Avropa Oyunlarının ev sahibi Azərbaycanın bayraqları dalğalanır. Uşaq xorunun üzvləri sülh və birlik rəmzi olan su zanbaqlarını komandaların bayraqdarlarına verirlər.

İdmançılar tribunaların önündən keçirlər. Tamaşaçılar "Bakı-2015"in iştirakçı ölkələrinin nümayəndələrini alqışlayırlar.

Təbii ki, Azərbaycan idmançılarının payına daha çox alqış düşür. Bu da təsadüfi deyil. İdmançılarımız Birinci Avropa Oyunlarında, sözün əsl mənasında, tarix yazmağa nail oldular. Onlar yarışların 21 qızıl, 15 gümüş və 20 bürünc medalını qazandılar. Bununla da Azərbaycan qitə üzrə ikinci yeri tutmaqla, idman ölkəsi olduğunu bir daha sübuta yetirdi.

Azərbaycanın birinci xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki mərasimdə çıxış etdilər.

Çıxışlar zamanı fonda gözəl musiqi səslənir. Onu Avropanın istedadlı musiqiçilərindən biri olan Kristian Ştaynhauzer bağlanış mərasimi üçün məxsusi bəstələyib.

Stadionun monitorlarında daha bir qısa film nümayiş olunur. Film Azərbaycanın yaxın illərdə ev sahibliyi edəcəyi böyük tədbirlərdən - 2016-cı il "Formula-1" Avropa Qran-pri yarışlarından, 2017-ci il İslam Həmrəylik Oyunlarından, 2020-ci il futbol üzrə Avropa çempionatının final mərhələsi matçlarından və Bakının görməli yerlərindən bəhs edir.

Səhnədə dünyamızın gələcəyi təsvir olunur. Bu, gəncliyin enerjisidir. Rəqqas səhnədə bir enerji qığılcımı yaradır. Güclü enerji bədənindən keçərək onu hərəkətə gətirir. Rəqqas bu enerjini rəqqasəyə, daha sonra isə başqalarına ötürür.

Musiqi getdikcə həzinləşir və tamaşaçıların diqqəti səmaya yönəlir. İfaçılar üzərində altıbucaq formalı işıq zolaqları olan sirk halqalarında akrobatik hərəkətlər edirlər. Onlar tədricən yerə enir və bu zaman səhnədə çıxış edən ifaçılar şouya qoşulurlar. Əllərində əlvan rəngli bayraqlar olan 75 ifaçı səhnə boyunca hərəkət edir. Ahəngdar şəkildə hərəkət edən altıbucaqlı lövhələr birləşərək buta formalı üç səhnəni təcəssüm etdirən obraza çevrilir. Sonda "Bakı-2015" birinci Avropa Oyunlarının rəmzi olan nar ağacının qrafik obrazı yaranır.

Stadionun monitorlarında 17 günlük yarışların əsas məqamları nümayiş etdirilir. Tamaşaçılar ruh yüksəkliyi və sevincin, qələbə və məğlubiyyətin doğurduğu hisslərin, idman arenalarında yaranmış dostluğun şahidi olurlar.

Stadiona Azərbaycan muğamını tərənnüm edən həzin kamança səsi yayılır. Əsas səhnədə Atəşgah məbədi ucalmağa başlayır. Məbədin damında dayanmış qum rəssamı Simurq quşu əfsanəsindəki "həyat ağacı"nı çəkir. Onun çəkdikləri səhnədə heyrətamiz şəkildə canlanır. Yetmiş altı rəqqas qum üzərində çəkilən təsvirlərə mütənasib xoreoqrafik hərəkətlər nümayiş etdirir. Rəssam yaxınlaşan tufanı təsvir etdikdə rəqqaslar külək və dalğaları canlandırırlar. Daha sonra o, qum üzərində quş fiqurları çəkir və səhnədə Oyunların iştirakçısı olmuş 50 ölkəni təcəssüm etdirən 50 quş görünür. Quşlar bir yerə toplaşaraq əfsanəvi Simurq quşuna çevrilir.

Bu möhtəşəm səhnə məşhur əfsanənin motivləri əsasında qurulub. Əfsanəyə görə, bir dəstə quş xoşbəxtliyin, sağlamlığın və müdrikliyin müjdəçisi olan sehrli Simurq quşunun axtarışına çıxır. Bir araya gəldikdə Simurq quşunun ruhunun qəlblərində yaşadığını və birləşəcəkləri təqdirdə vahid sirli varlığa çevriləcəklərini anlayırlar. Belə də olur. Onların birliyindən yaranan Simurq quşu alovların əhatəsində pərvazlanıb səmaya qalxır və qanad çaldıqca yanaraq minlərlə işıq zərrəciyi arasında görünməz olur. Onun közü yerə yeni həyat toxumları kimi səpələnir, torpağa düşdükcə oyanış, dirçəliş baş verir.

Mərasim üçün yaradılan Simurq quşunun çəkisi 2 tona yaxın, ölçüləri 18x18 metrdir. Onun 50 qanadının hər birinin uzunluğu gərildikdə 1-3,4 metrə çatır.

Səmadan tamaşaçıların üzərinə Simurq quşu əfsanəsindəki oyanış və dirçəliş toxumlarını əks etdirən yanar köz - işıq diodları səpələnir. Beləliklə, 17 günün kulminasiya nöqtəsi yaxınlaşır, Birinci Avropa Oyunlarının alovu sönməyə başlayır. Yavaş-yavaş sönməkdə olan bu alovun ətrafında 50 iştirakçı dövləti təmsil edən 50 uşaq dayanır. Onlardan biri Oyunların alovu ilə çırağını yandıraraq onu digər uşaqlarla bölüşür. Çıraqlar bir-bir yanır.

Sonra səhnənin mərkəzinə yaxınlaşan alov ifaçıların yanından keçir və onların da çıraqları yanmağa başlayır. Bu çıraqların asıldığı nəhəng çilçıraq səmaya yüksəlir. Stadion möhtəşəm işıq selinə qərq olur. Buradan belə bir məna çıxır: Avropa Oyunları alovunun zərrəciklərini qəlbimizdə daşıyıb dünya ilə paylaşsaq, o da Simurq quşu kimi ölməz olacaq.

Bu təsirli səhnələr Martin Rozenqarten və Kristian Ştaynhauzerin Azərbaycan xalq mahnısı "Sarı gəlin"in motivləri əsasında aranjeman etdikləri "Lanterns" musiqisi ilə müşayiət olunur. Musiqi Şirzad Fətəliyevin ifasında balabanda səslənir.

Stadionda müasir rəqslər və mahnılar, ecazkar görüntülər bir-birini əvəz edir. Məşhur musiqi qruplarının və xarici estrada ulduzlarının ifaları əsl bayram ovqatı yaradır.

İdmançılar tribunalardan meydançaya axışır, rəqs edənlərə qoşulurlar. Bu səhnə birlik və dostluğun daha bir parlaq nümayişinə çevrilir.

Möhtəşəm atəşfəşanlıq başlayır. Bakı səmasını nura boyayan al-əlvan fişənglər ilk Avropa Oyunlarının başa çatmasından xəbər verir. Beləliklə, "Bakı-2015" Azərbaycana başucalığı gətirən tarixə çevrilir.

**AZƏRTAC-ın materialları əsasında**

# Rəsmi xronika

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Lixtenşteyn parlamentinin sədri Albert Friki qəbul edib.*

*Birinci Avropa Oyunlarının əhəmiyyətinə toxunan dövlətimizin başçısı bu Oyunları Avropanın idman tarixində böyük hadisə kimi dəyərləndirdi. Prezident İlham Əliyev qeyd etdi ki, beynəlxalq Olimpiya Komitəsinin üzvləri və bütün qonaqlar Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil edildiyini və bu Oyunların Yay Olimpiya Oyunları səviyyəsində olduğunu bildirirlər.*

* * *

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Sosialist İnternasionalının baş katibi Luis Ayalanı qəbul edib.*

*Dövlətimizin başçısı bu mötəbər idman yarışında Avropanın 50 Olimpiya komitəsinin, 6 minə yaxın idmançının və xeyli sayda qonaqların iştirakının əhəmiyyətini vurğuladı.*

*Görüşdə Birinci Avropa Oyunlarının xalqlar arasında əlaqələrin genişləndirilməsi işinə verdiyi töhfənin əhəmiyyəti qeyd olundu, Azərbaycan-Sosialist İnternasionalı əməkdaşlığının perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Avropa Olimpiya Komitələrinin prezidenti Patrik Hikkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Avropa Olimpiya Komitələrinin prezidenti Patrik Hikki Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsinə görə dövlətimizin başçısına təşəkkürlərini çatdırdı. O dedi: "Dünən Sizin parolimpiyaçı cüdoçu İlham Zəkiyevə qızıl medalı təqdim etməyiniz və onunla birlikdə fəxri kürsüdə durmağınız möhtəşəm və həyəcanlı anlar idi. Bu görüntülər bütün dünyada çox böyük maraqla izlənildi".*

*Xoş sözlərə görə Avropa Olimpiya Komitələrinin prezidenti Patrik Hikkiyə dərin minnətdarlığını bildirən dövlətimizin başçısı həqiqətən də, İlham Zəkiyevə qızıl medalın təqdim edilməsi mərasiminin bütün Azərbaycan xalqı və eləcə də idmançılar üçün çox təsirli məqam olduğunu vurğuladı. İlham Zəkiyevin cəsurluq, ləyaqət simvolu olduğunu qeyd edən dövlətimizin başçısı ona medalın məhz Azərbaycanın Silahlı Qüvvələr Günündə təqdim edilməsinin çox rəmzi və əlamətdar xarakter daşıdığını bildirdi.*

* * *

*✓İyunun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birinci Avropa Oyunlarının bağlanış mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliyev ilə görüşüb.*

*Görüşdə Bakıda keçirilən Birinci Avropa Oyunlarının əhəmiyyəti qeyd olundu. Bolqarıstan Prezidenti Rosen Plevneliyev tarixdə ilk dəfə baş tutan Birinci Avropa Oyunlarının uğurla keçirilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik etdi, Oyunların yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına bolqar xalqının təşəkkürünü çatdırdı.*

*Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə olundu. Əlaqələrimizin siyasi, iqtisadi, energetika, səhiyyə və digər sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı.*

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə Nazirliyinin rəhbərliyi Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib







Silahlı Qüvvələr Günü münasibətilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılığı ilə nazirliyin rəhbərliyi və şəxsi heyəti iyunun 26-da Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri düzülüb, xatirələri hörmət və ehtiramla yad edilib.

Sonra Müdafiə Nazirliyinin şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət edib, Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş şəhidlərimizin məzarları üzərinə və onların xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri düzüb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# "Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün istiqamətlər üzrə uğurla inkişaf edir"

## Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Silahlı Qüvvələrin yaradılmasının 97-ci ildönümünə həsr edilmiş təntənəli mərasimdə çıxışı

Hörmətli qonaqlar!

Cənab generallar və zabitlər!

Sizi Silahlı Qüvvələrin 97-ci ildönümü münasibətilə təbrik edirəm, xidmətlərinizdə uğurlar arzulayıram. Təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş Silahlı Qüvvələr bu gün Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə bütün istiqamətlər üzrə uğurla inkişaf edir.

İl ərzində Silahlı Qüvvələrdə modernizasiya məsələləri, döyüş hazırlığı, sosial bazanın gücləndirilməsi istiqamətində böyük işlər həyata keçirilib. Mütəmadi olaraq döyüş atışlı təlimlərin icra edilməsi bir daha döyüş hazırlığının yüksək səviyyədə olmasının sübutudur. Bütün fəaliyyətlər birbaşa Silahlı Qüvvələrin Ali Baş Komandanının diqqət və qayğısının nəticəsidir.



Ötən gün möhtərəm Prezident Hərbi Dəniz Qüvvələrinin yeni bazasının açılışını həyata keçirdi. Şəxsi heyətin qarşısında çıxış edərək Ali Baş Komandan Silahlı Qüvvələrin xidməti döyüş fəaliyyətinə yüksək qiymət verdi, ordu qarşısında qəti vəzifələr qoydu. O qeyd etdi ki, Silahlı Qüvvələrin qarşısında duran əsas vəzifə torpaqları işğaldan azad etməyə daim hazır olmaqdır.

Azərbaycan dövlətinin sülhsevər siyasəti nəticə vermir, çünki erməni tərəfi beynəlxalq səviyyədə qəbul edilən qərar və qətnamələrin tələblərini yerinə yetirmir. Cənab Prezident xüsusi qeyd etdi ki, əgər erməni əsgəri ölmək istəmirsə, Füzuliyə, Ağdama gəlməsin.

Silahlı Qüvvələrin 2014-cü və 2015-ci illərdəki fəaliyyətinə nəzər yetirsək görərik ki, cəbhədə ermənilərin təxribatına layiqli cavab verilib və bundan sonra da bütün təxribatların qarşısı inamla alınacaqdır.



Cəbhəboyu təşəbbüs tam olaraq Silahlı Qüvvələrimizin tərəfindədir və günü-gündən möhkəmlənən ordu müqəddəs vəzifəni qısa bir müddətdə yerinə yetirəcəkdir.

Bu bayram günündə mən bir daha şəhidlərimizin xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən döyüşçülərimizi, veteranları, hazırda düşmənlə təmas xəttində, döyüş növbətçiliyində, qarovul xidmətində olan şəxsi heyəti təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti və uğurlar arzulayıram.

Bütün Silahlı Qüvvələri və Azərbaycan xalqını qələbə arzusu ilə təbrik edirəm.

Bayramınız mübarək!

# Müdafiə naziri hərbi şəhərcikdə inşa edilən yeni obyektlərin açılışını edib













***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, hərbi şəhərciklərin kompleks şəkildə tikilərək hərbi qulluqçuların istifadəsinə verilməsi istiqamətində hərbi qarnizonlarda aparılan işlər davam etdirilir.***

Hərbi hissəyə gələn Müdafiə Nazirliyinin rəhbərliyi əvvəlcə burada ucaldılan ümummilli lider Heydər Əliyevin büstünü ziyarət edib gül dəstələri qoyaraq dahi rəhbərə hörmət və ehtiramlarını bildiriblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi hissədə ərazinin perspektiv tikinti-quruculuq planına baxaraq yeni istifadəyə verilən əsgər yataqxanası, yeməkxana və hamam-camaşırxana kompleksi ilə tanış olub. Ərazidəki yeni obyektlərin hamısı zəruri avadanlıqlarla təchiz olunub, kommunikasiya xətləri çəkilib və ətrafda geniş abadlıq-quruculuq işləri aparılıb.

Bildirilib ki, üç mərtəbəli əsgər yataqxanasında hərbi qulluqçuların məişət şəraiti üçün müasir infrastruktur yaradılıb, yataq və digər otaqlar lazımi avadanlıqlarla tam təchiz olunub. Binanın hər mərtəbəsində məişət guşələri, ideoloji və ayrı-ayrı xidməti otaqlar yerləşir. Bundan əlavə atıcı silahlar, trenajorlar sinfi, saxlanclar, idman və digər inzibati otaqlar da hazırlanıb.

Yeni istifadəyə verilən hamam-camaşırxana kompleksi də stasionar şəraitdə yerləşən hərbi hissənin şəxsi heyətinin sosial-məişət və sanitar-gigiyenik şəraitinin yaxşılaşdırılması məqsədilə inşa edilib.

İki mərtəbəli geniş əsgər yeməkxanası da yeni inşa olunaraq yüksək keyfiyyətli qida məhsullarının hazırlanması üçün müasir tipli avadanlıqlarla təmin olunub.

Əraziyə baxış keçirdikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi hərbi hissədə çalışan mülki əməkdaşlarla görüşərək söhbət aparıb və hərbi qulluqçularla birlikdə nahar ediblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Yeni təlim-atış mərkəzi açılıb













***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, ordunun döyüş hazırlığının yüksəldilməsi məqsədilə həyata keçirilən kompleks tədbirlər mütəmadi olaraq davam etdirilir.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi qulluqçuların atəş və taktiki hazırlığı üçün nəzərdə tutulan yeni təlim-atış mərkəzinin açılışında iştirak edib.

Müdafiə nazirinə mərkəz haqqında məlumat verilərək bildirilib ki, ərazidə cəbhə xəttindəki vəziyyətin modelləşdirilməsi, təlimlərin real döyüş şəraitinə uyğun olaraq keçirilməsi, düşmənin təxribat-kəşfiyyat cəhdlərinin qarşısının alınması, əks tədbirlərin görülməsi və digər praktiki məşqlərin keçirilməsi üçün bütün şərait yaradılıb. Eyni zamanda poliqonda istənilən şəraitdə hazırlıq məşqlərini keçmək məqsədilə müvafiq siniflər hazırlanıb.

Qısa müddətdə istifadəyə verilən poliqonda şəxsi heyət silahlanmada olan atıcı silahlar, minaatanlar və qumbaraatanlardan istifadə etmək bacarığına yiyələnəcək və təcrübə qazanmaq imkanı əldə edəcəklər. Ərazidə hazırlanmış hədəf sahəsi tam kabelləşdirilib, avtomatik enib-qalxma hədəfləri, geri daxil olan məlumatlar və qiymətləndirmə avadanlığı ilə təmin edilib.

Müdafiə nazirinə şəxsi heyətin nəzəri biliklərinin artırılması üçün lazım olan yeni nəşr edilmiş təlim-metodik ədəbiyyat təqdim olunub. Bütün bunlar da hərbi tədris proqramlarının keyfiyyətlə öyrənilib mənimsənilməsinə, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılmasına, praktik vərdişlərinin möhkəmləndirilməsinə imkan verəcəkdir.

Müdafiə naziri ərazidəki Mərkəzi idarəetmə məntəqəsi, atış və taktiki sahə, kəşfiyyat cığırı, taktiki zolaq, digər inzibati bina və qurğularla tanış olduqdan sonra kəşfiyyat bölməsinin praktiki hazırlığını və atəş nöqtələrində yerinə yetirilən təlim çalışmalarını izləyib.

Snayper hazırlığı kursunda təlim atışlarını izləyən nazir hədəflərin hamısını dəqiqliklə məhv edən hərbi qulluqçuların peşəkarlıq və bacarığını, tezliklə cəbhə xəttinə yollanaraq ön xətdə xidmət etmək istəklərini yüksək qiymətləndirib.

Müdafiə naziri şəxsi heyətin daha peşəkar səviyyədə hazırlanması məqsədilə müasir ordularda mövcud olan ən yeni təlim üsullarının öyrənilməsi, şəraitə uyğunlaşdırılması və qoşunların döyüş hazırlığında tətbiq olunması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Qadın snayperlərlə müsahibə*

# “Hədəfi nişan alarkən gözümdə düşməni canlandırıram...”

***Ordudan, xidmətdən danışarkən ilk öncə hərbi geyimli kişiləri nəzərimizə gətiririk və insanın gözü önündə əlində silah, əynində forma olan kişilər, barıt qoxulu səngərlər, döyüşlər canlanır. Lakin müasir dövrümüzdə dünyanın istənilən güc strukturlarında qadınlara da rast gəlinir. Artıq ölkəmizdə də bu təcrübə geniş yer alıb. Silahlı Qüvvələrimizin bütün sahələrində qadın hərbi qulluqçuların sayı durmadan artmaqdadır. Müsahiblərimiz zərif cinsin nümayəndələri olmalarına baxmayaraq, bu peşəni seçməyi özlərinə borc bilənlərdir.***

***- Vüsalə xanım, hansı səbəbdən hərbçi olmaq qərarına gəldiniz?***

- Torpaqlarımızın işğalda olması hər bir azərbaycanlı kimi mənim də sızlayan yaramdır. Həmçinin, uşaqlıqdan hərbi formaya marağım olub, əsgər olmaq arzusunda olmuşam. Lakin uzun illər bu arzuma çata bilmirdim. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğı, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun orduda apardığı uğurlu islahatların bütün sahələrdə səmərəli nəticə verdiyinin və hər kəsin ürəyincə olduğunun şahidiyəm. Uğurlu islahatlardan biri də qadınların orduya cəlb olunmasıdır. Buna görə ölkə başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığımı bildirirəm.

***- Ordu sıralarına daxil olmaqda məqsədiniz nədir?***

- Həyatım boyu məqsədlərimə çatmaq üçün mübarizə aparmışam. Çətin də olsa, nail ola bilmişəm. Forma geyinmək, əlimdə silah Vətənimə xidmət etmək başlıca məqsədlərimdən biri olub. Məqsədimin birinci mərhələsini uğurla başa vurmuşdum. Artıq hərbi xidmətdəydim. İkinci məqsədim isə snayper olmaq idi. İlkin ixtisasım operator olsa da, snayper olmaq istəyirdim. Yuxarı komandanlığa müraciət etdim və snayper hazırlığı kursuna göndərildim. Növbəti məqsədim isə cəbhə bölgəsinə yollanmaq, düşmən ilə üz-üzə dayanıb xidmət etməkdir. Ön xətdə xidmət etməyin çətin olduğunu düşünmürəm. Əldə silah hər an düşməni məhv etmək ehtimalı mənə stimul verir. Bilirəm ki, silahımla hədəfi düzgün seçərək düşməni məhv edəcəyim günlər yaxındadır.

***- Neçə müddətdir snayper hazırlığı keçirsiniz, bu dövrdə hansı nailiyyətləriniz olub?***

- Artıq xeyli müddətdir snayper hazırlığı kursundayam. OSV-96 snayper tüfəngi yüngül zirehli texnikalara qarşı tətbiq olunur. Silahımdan məharətlə istifadə etməyi bacarıram. Hazırlıq dövründə təlimlərdə iştirak edib təyin olunan hədəfə dəqiq atəş açmaqla "əla" qiymət almışam. Həmçinin, Azərbaycan-Türkiyə Silahlı Qüvvələrinin may ayında keçirilən birgə taktiki təlimlərində iştirak etmişəm.

***- Snayper olmaq həvəsi sizdə necə yaranıb?***

- "Qadın snayper" müasir dünyada elə də nadir anlayış deyil. Hələ Böyük Vətən müharibəsi zamanı qadın snayperlərin adları bütün dünyaya məlum olub. Onların arasında azərbaycanlı qadın snayper, Ziba Qəniyeva da vardır. O, 129 düşmən əsgərini məhv edib.

Həmçinin, snayper üçün lazım olan keyfiyyətlərin məndə də yetərincə olduğunu bilirəm.

***- Snayper üçün hansı keyfiyyətlərə malik olmaq lazımdır?***

- Snayperin əsas keyfiyyətləri hədsiz səbr, ustalıqla maskalanaraq gözə görünməmək qabiliyyəti və hadisələri intiusiyanın köməyi ilə öncədən təxmin etmək bacarığıdır. İntuisiya isə qadınlarda güclüdür. Snayper üçün sadəcə atəş açmaq azdır. Gizlənməyi, saatlarla hərəkətsiz qalmağı bacarmalısan. Snayper duelində birinci tərpənən ölümə məhkumdur.

***- Ailəniz seçdiyiniz çətin və şərəfli yolda sizi dəstəkləyir?***

- Yolumun məsuliyyətli olduğunun fərqindədirlər və ən böyük dayağım ailəmdir. Hər gün xidmətimlə, atışların necə keçməsi ilə maraqlanır, uğur və nailiyyətlərimə mənimlə birgə sevinirlər.

Onu da qeyd edim ki, əmim düşmən gülləsindən şəhid olub. Deyirlər ki, geyindiyimiz forma şəhidlərimizin kəfənidir. Mənim kimi ürəyi Vətən eşqi ilə döyünən hər bir azərbaycanlının bir arzusu, bir məqsədi var. Şəhidlərimizin qisasını almaq, torpaqlarımızı azad etmək.

***- Orduda xidmət etmək istəyən qadınlara nə demək istərdiniz?***

- Onu deyə bilərəm ki, torpaqlarımız işğal altındadır. Bu torpaqlar hər bir Azərbaycan vətəndaşınındır. Əli silah tuta bilən hər kəs düşmən qarşısında maneə olmalıdır. Xidmət etmək kənardan göründüyü kimi çətin deyil. Ürəyində Vətən eşqi olan hər bir azərbaycanlı bu şərəfli yolda hərbçilərin yanında olmalıdır.



**Vüsalə Həsən qızı Məmmədova** - 1990-cı ildə Bakı şəhərində anadan olub. Orta təhsillidir. Ailəlidir. 1 övladı var. 2014-cü ildən hərbi xidmətdədir.
**Könül Şakir qızı Məmmədli** - 1982-ci ildə Sumqayıtda anadan olub. Ali təhsillidir. 2014-cü ildən hərbi xidmətdədir.

* * *

***- Könül xanım, deyirlər hərb sənəti məsuliyyətlidir. Belə bir məsuliyyətli yola qədəm qoymağınızın səbəbi nədir?***

- Sumqayıtda dünyaya göz açsam da, uşaqlığım cəbhə bölgəsindəki Qazax rayonunda keçib və daim atəş səsləri eşitmişəm. Uşaq olsam da qorxmurdum. Böyüyəndə "hərbçi olacam" deyirdim. Lakin ailəm müəllimə olmağımı istəyirdi. Atamın arzusu ilə Azərbaycan Dillər Universitetinə qəbul oldum. Universiteti bitirdikdən sonra müəllimə kimi çalışmağa başladım. Sumqayıtda, Gədəbəyin ucqar dağ kəndlərində və Qobustanda ingilis dili dərslərini tədris etmişəm.

Amma həmişə forma geyinmək istəyində olmuşam. Kimdəsə forma görəndə ürəyim dağa dönürdü, lakin hərbçi ola bilmədiyim üçün üzülürdüm. Son illər ordu sıralarında qadınların xidmətə başlamasına şərait yaradıldı. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun yaratdığı bu imkandan mənim kimi xidmət etmək istəyən xeyli insan yararlandı.

***- Bildiyimiz kimi, siz snayper kimi xidmət edirsiz. Bu sahə diqqət və məsuliyyət tələb edir. Qadın kimi bu sizi qorxutmurki?***

- Səbr, dözüm və uyğunlaşma bacarığı - bütün bu göstəricilərə görə qadınlar daha üstündür. Yüksək özünümüdafiə duyumuna görə, qadınlar üçün pusquda qalmaq daha yaxşı alınır. Heç kim üçün sirr deyil ki, biz qadınların həddən artıq güclü müşahidə etmə bacarığı da var.

Müddətdən artıq həqiqi hərbi xidmət etmək istədiyimi bildirdiyim zaman bir neçə ixtisas təklif olundu. Ali təhsilli olduğum, iki xarici dil bildiyim üçün Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində müəllimə kimi fəaliyyət göstərməyimi tövsiyə etdilər. Lakin snayper olmaq istədiyimi bildirdim və xidmətə başladım. Bu yolu seçərkən çətinliyi də, məsuliyyəti də göz önünə almışam. Heç bir qorxum yoxdur.

***- Hansı təlimlərdə iştirak etmisiniz? Snayper kimi hansı uğurlarınız var?***

- Qeyd edim ki, mənə SVD snayper tüfəngi təhkim olunub. Bu silah peyda olan, hərəkət edən, gizlənmiş tək hədəfləri məhv etmək üçün hazırlanıb. Tüfəngdən atəş açmaq üçün adi, trasser, zirehdeşən-yandırıcı və snayper güllələrindən istifadə olunur. Atəş tək-tək açılır. Silahımın taktiki-texniki xüsusiyyətlərinə yaxşı bələdəm. Keçirilən bir sıra təlimlərdə iştirak etmişəm. Təlimlər zamanı "əla" qiymət almışam. Hədəfi nişan alarkən gözümdə düşməni canlandırıram.

***- Bu yolda əsas dəstəkçiniz kimdir?***

- Ən böyük dayağım atamdır. Bəli, mən atamın qarşısına çıxıb hərbçi olmaq arzumu dedim. İllər əvvəl hərbçi olmaq istəyimə mane olsa da, bu dəfə qəti qərarımı görüb mənə dəstək verdi.

***- Bugünkü atışlar barədə nə deyə bilərsiniz?***

- Bizim üçün çox önəmli gün idi. Atışlardan sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov bizi cəsarətli qəhrəmanlar kimi qiymətləndirdi. Biz də öz növbəmizdə xahiş etdik ki, cəbhə bölgəsinə göndərilək. Ön xətdə xidmət edərək həm döyüşçü yoldaşlarımıza dəstək olarıq, həm də təcrübəmizi artırarıq.

***- Ordu sıralarında xidmət edən döyüşçü yoldaşlarınıza nə demək istərdiniz?***

- Qeyd edim ki, respublikamızda istənilən sahədə inkişaf var. Lakin Silahlı Qüvvələrə diqqət və qayğı daha çox diqqət mərkəzindədir. Bu hər bir döyüşçüyə düşmən üzərində qələbə qazanmaq üçün əlavə stimul verir. Biz gənclər çox şanslıyıq ki, müasir və müstəqil ordumuzun sıralarında xidmət edirik. Ümummilli liderimiz və müasir ordumuzun qurucusu Heydər Əliyevin bir zamanlar qeyd etdiyi kimi, "Bu günümüzün gəncləri özlərini xoşbəxt sanmalıdır ki, onlara doğma Vətənimizin ordusunda xidmət etmək nəsib olub".

Hər birimiz yaxşı başa düşürük ki, qarşımızda dayanan ən mühüm vəzifə işğal edilmiş torpaqlarımızı son qarışına kimi düşməndən azad etməkdir. Bu müqəddəs vəzifəmizi heç birimiz unutmamalıyıq...

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələr Gününə həsr edilmiş tədbirlər



***26 İyun - Silahlı Qüvvələr Günü "N" hərbi hissəsində də yüksək təntənə ilə qeyd olunub. Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə keçirilən mərasim Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Polkovnik-leytenant Elşən Qapaqov tarixi gün münasibətilə şəxsi heyəti və tədbirə toplaşanları təbrik edib.***

Zabit ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 26 İyunun Silahlı Qüvvələr Günü kimi qeyd olunmasını tariximizə, ənənələrəmizə verilən yüksək qiymət kimi dəyərləndirib. Bildirib ki, Azərbaycan Əlahiddə Korpusunun sələfi kimi həyata vəsiqə alan Silahlı Qüvvələrimiz dünya şöhrətli siyasətçi, böyük dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə inkişaf etdirilib. Sonra bu siyasət onun layiqli davamçısı, Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla həyata keçirilib. Ölkə rəhbərliyi tərəfindən orduya göstərilən diqqət və qayğının bəhrəsidir ki, Silahlı Qüvvələrimiz müasir tələblər səviyyəsində qurularaq yeni inkişaf mərhələsinə qədəm qoyub. İnamla deyə bilərik ki, qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirən ordunun şəxsi heyəti Vətən torpaqlarını işğaldan azad etməyə hazırdır.




Mayor Hikmət Rəhimov da əsgər və zabitlər adından bildirib ki, Vətənimizin keşiyində dayanan hərbi qulluqçular onlara göstərilən böyük etimadı doğruldacaqlar.

Sonra meydan musiqiyə verilib. "Vətən uğrunda" hərbi vətənpərvərlik mahnı müsabiqəsinin iştirakçıları Rəşad İsmayıl və Abdulla Mədinovun ifaları alqışlarla qarşılanıb.

Xalq artisti Azərin və əməkdar artist İlqar Muradov əsgər və zabitləri şən mahnıları ilə təbrik ediblər.

Hərbi hissə komandanlığı tərəfindən Gəncə Qarnizonu Zabitlər Evinin kollektivinə və incəsənət ustalarına fəxri fərmanlar təqdim olunub.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

---



***Silahlı Qüvvələr Günü bütün ordu birləşmələrində olduğu kimi, Beyləqan bölgəsində də təntənə ilə qeyd edildi.***

"N" hərbi hissəsində böyük canlanma vardı. Polkovnik Elçin Kərimov bayram tədbirlərinə yüksək səviyyədə hazırlaşdıqlarını bildirdi. Həmin gün səhər ertədən hərbçilər bayram libasında sıra meydanına toplaşırdılar. Bir azdan polkovnik Bəkir Orucov birlik komandirinin Silahlı Qüvvələr Günü ilə əlaqədar şəxsi heyətin mükafatlandırılması əmrini çatdırdı. Hərbi xidmətdə fərqlənən zabitlərə fəxri fərman, qiymətli hədiyyə və başqa həvəsləndirici mükafatlar təqdim edildi. General-mayor Xəqani Cəbrayılov tabeliyində olanları bir daha təbrik edib onlara hərbi xidmətdə uğurlar dilədi.

Daha sonra qərargahın qarşısında xalqımızın böyük oğlu, ordumuzun qurucusu olan Heydər Əliyevin xatirəsinə ucaldılmış büstün açılışı oldu. General-mayor Xəqani Cəbrayılov və digər yüksək rütbəli zabitlər büstün önünə gül dəstələri düzdülər.

Hərbçilər Heydər Əliyev Mərkəzinə gələrək Beyləqan və Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdilər. Daha sonra Beyləqan şəhər stadionunda birliyin hərbi hissələri arasında futbol, voleybol, 300 metr məsafəyə qaçış və estafet yarışlarının final oyunları keçirildi.

Tədbir başlanmazdan öncə ulu öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndikdən sonra mərasim açıq elan olundu. Polkovnik Elçin Kərimov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 97-ci ildönümü münasibətilə şəxsi heyətə ünvanladığı təbriki oxudu. Həmçinin, general-mayor Xəqani Cəbrayılovun hərbi hissələrin şəxsi heyətinə ünvanladığı təbriki çatdırıldı. Daha sonra zabit bildirdi ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycan Ordusu peşəkar, intizamlı və güclü bir ordu kimi formalaşmağa başladı. “Vahid komandanlıq altında yaradılan ordu Qarabağda gedən döyüşlərdə öz müsbət təsirini göstərdi. Horadiz, Tərtər, Ağdam istiqamətlərində aparılan uğurlu hərbi əməliyyatlardan sonra Ermənistan hərbi birləşmələri böyük itkilər verərək 1994-cü il mayın 12-də cəbhədə atəşkəs rejimini imzalamağa məcbur edildi”.




Sonra natiq bildirdi ki, ordumuz Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyub. Ordumuzun gücləndirilməsi üçün ayrılan hərbi xərclərin ilbəil artırılması nəticəsində Silahlı Qüvvələrimiz Cənubi Qafqazın ən güclü ordusu oldu.

Polkovnik çıxışında Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tez-tez cəbhə bölgəsində, əsgərlərin yanında olduğunu və onların məişət şəraiti ilə yaxından maraqlandığını vurğuladı.

Daha sonra çıxış edən Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov və Beyləqan rayon İcra Hakimiyyəti başçısının birinci müavini Telman Məstanov ordumuzun hərbi qüdrətinin güclənməsindən söz açdılar. Azərbaycan Prezidenti cənab İlham Əliyevin döyüşçülərə göstərdiyi diqqət və qayğıdan geniş bəhs etdilər.

Tədbirin davamı olaraq meydançaya finala çıxmış komandalar daxil oldular. Yarışlar Silahlı Qüvvələr Gününə həsr edildiyi üçün final mərhələsini də həmin günə müəyyən etmişdilər. Gərgin keçən futbol matçı maraqla izlənildi. Sonda qalib komandalara kubok və diplomlar təqdim edildi.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

---

***Naxçıvan bölgəsindəki "N" hərbi hissəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 97-ci ildönümü münasibətilə bayram tədbiri keçirilib.***

Əlahiddə Ümumqoşun Ordusunun zabiti polkovnik Mirqiyas Rüstəmov bayram münasibətilə əsgər və zabitləri təbrik edərək bildirib ki, müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. "1991-ci ilin sonlarında SSRİ-nin dağılması nəticəsində öz müstəqilliyini yenidən bərpa edən Azərbaycan mürəkkəb ictimai-siyasi vəziyyətlə üzləşmişdi. Ölkədəki ağır vəziyyət, xaos və özbaşınalıq ordu siyasəti sahəsində də özünü göstərmişdi. Silahlı birləşmələr daxili siyasi mübarizəyə cəlb olunmuş, ayrı-ayrı şəxslərə və siyasi qruplara xidmət edən silahlı dəstələrə çevrilmişdi. Yalnız 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Ulu öndər ordu quruculuğuna hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışarkən başlamışdı", - deyib zabit.

Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da, sözün həqiqi mənasında, düşmən qarşısında alınmaz qalaya çevrilib. Hərbi hissələr üçün onlarla yeni binalar - əsgəri-məişət-yaşayış kompleksləri, müxtəlif təyinatlı obyektlər tikilib istifadəyə verilib və silahlanmaya müasir hərbi texnikalar daxil edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Gənclər Fondunun əməkdaşı Qabil Vəliyev və Muxtar Respublika Yazıçılar Birliyinin sədri şair Asim Yadigar çıxış edərək Vətənin müdafiəsində dayanan əsgərləri təbrik edib, onlara xidmətlərində uğurlar arzulayıblar.

Şairlərdən Həsənalı Eyvazlı, Elxan Yurdoğlu, Qanun Ümman, Zeyqəm Vüqar vətənpərvərlik ruhunda şeirlər səsləndiriblər.

Naxçıvan Dövlət Filarmoniyasının yaradıcı kollektivinin nümayiş etdirdiyi konsert proqramı əsgərlər tərəfindən alqışlarla qarşılanıb.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

---

***Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində də 26 İyun - Silahlı Qüvvələr Günü böyük təntənə ilə qeyd olunub. Əvvəlcə şəxsi heyət Mingəçevir şəhərindəki Şəhidlər xiyabanına gələrək torpaqlarımızın erməni işğalçılarından qorunması uğrunda mübarizədə şəhid olan döyüşçülərin xatirəsini yad edib.***



Sonra hərbi hissədə davam etdirilən bayram tədbiri Dövlət himninin ifa olunması ilə başlanıb. Polkovnik-leytenant Bünyam Hümbətov çıxış edərək Azərbaycan Silahlı Qüvvələrinin yaranmasından və müasir mərhələdə dövlət rəhbərliyinin yüksək diqqəti sayəsində ordumuzun dünya standartları səviyyəsində formalaşmasından danışıb. Zabit sonda əminliklə qeyd edib ki, təmsil olunduğu hərbi hissənin kollektivi də ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizəyə layiqli töhfəsini verməyə hazırdır.

Mingəçevir şəhər ictimaiyyətinin, veteran təşkilatının və digər əlaqədar qurumların nümayəndələrinin qatıldığı mərasimdə İcra Hakmiyyəti başçısının birinci müavini İlham İsmayılov, şəhər müharibə veteranları təşkilatının sədri Ələm Əliyev və başqaları söz alaraq Silahlı Qüvvələrin yaradılmasının 97-ci ildönümü münasibətilə hərbi hissənin şəxsi heyətini təbrik ediblər. Çıxış edənlər Azərbaycan Ordusunun hərbi qüdrətinin artmasından qürur duyduqlarını ifadə edərək tezliklə torpaqlarımızın işğaldan azad ediləcəyini və üçrəngli bayrağımızın ölkəmizin hər bir guşəsində qürurla dalğalanacağını bildiriblər.

Mingəçevir şəhər Mədəniyyət və Turizm İdarəsinin təşkilatçılığı ilə keçirilən konsert proqramı tədbir iştirakçılarına xoş ovqat aşılayıb.

Sonda əsgərlər uşaq yaradıcılıq birliyinin hazırladığı test proqramında həvəslə iştirak ediblər. Sualları ən yaxşı cavablandıran əsgər Emin Yaqubov mükafata layiq görülüb. Həmçinin, hərbi xidmətdə fərqləndiklərinə görə hərbi qulluqçuların bir qrupu Mingəçevir şəhər İcra Hakimiyyəti tərəfindən mükafatlandırılıb.

**"Azərbaycan Ordusu"**

---

***Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 97-ci ildönümü "N" hərbi hissəsində də yüksək səviyyədə qeyd olundu. Əsgər və zabitləri əlamətdar gün münasibəti ilə təbrik edən polkovnik Gəray Bağırov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik məktubunu oxudu.***

Polkovnik Elşad Əbilov Müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun Silahlı Qüvvələrin 97-ci ildönümü münasibətilə təbrikini şəxsi heyətə çatdırdı.

Zabit Gəray Bağırov çıxış edərək bildirdi ki, Azərbaycan Demokratik Respublikası Əlahiddə Korpusunun varisi olan Silahlı Qüvvələrimizin 97-ci ildönümü yüksək döyüş, mənəvi-pisixoloji hazırlıqla qeyd edilir. Memarı və qurucusu xalqımızın ümummilli lideri Heydər Əliyev olan Silahlı Qüvvələrimiz qüdrətli inkişaf, tərəqqi yolu keçərək müasir dünya orduları sıralarına yüksəlib. Dünya şöhrətli siyasətçinin layiqli davamçısı Respublika Prezidenti İlham Əliyevin uğurlu daxili və xarici siyasəti sayəsində ordumuz daha da möhkəmlənib, regionun ən güclü, qüdrətli ordusuna çevrilib. Böyük diqqət və qayğının nəticəsidir ki, şəxsi heyətimiz qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirir. Taktiki, genişmiqyaslı təlimlərdə peşəkarlığını, döyüş qabiliyyətini artırır. İnanıram ki, növbəti bayram günlərimizi Vətənimizin ayrılmaz hissəsi olan Xankəndidə, Şuşada, Kəlbəcərdə, Zəngilanda, Qubadlıda və başqa işğal olunmuş ərazilərimizdə keçirəcəyik.

Silahlı Qüvvələrin 97-ci ildönümü münasibəti ilə şəxsi heyətin mükafatlandırılması haqqında birlik komandirinin əmri oxundu. Döyüş, içtimai-siyasi hazırlıqda daha çox fərqlənən zabitlərə, çavuş və əsgərlərə fəxri fərmanlar, qiymətli hədiyyələr təqdim olundu. Əlaçı əsgərlərə isə qısamüddətli məzuniyyət verildi.

Şəmkir şəhər 8 saylı uşaq bağçasının kollektivi də əsgər və zabitləri təbrik etdilər, orduya, Vətənə həsr olunmuş şeirlər söylədilər.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

---

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

İyunun 26-da Silahlı Qüvvələr Günü münasibəti ilə təntənəli mərasim keçirilib.

Mərasim açıq elan edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra mərasimdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 97-ci ildönümünə həsr edilmiş təbrik nitqilə çıxış edib, Silahlı Qüvvələrin şəxsi heyətinə xidmətlərində uğurlar arzulayıb.

Bayram münasibətilə Müdafiə naziri adından qonaqlara ziyafət verilib. Tədbir xalq artisti Azərinin və Müdafiə Nazirliyinin nümunəvi əlahiddə hərbi orkestrinin təqdim etdiyi bayram konserti ilə yekunlaşıb.

* * *

Ermənistanın elektron kütləvi informasiya vasitələrinin iyunun 26-da atəşkəs rejiminin pozulması nəticəsində guya bir erməni hərbi qulluqçunun ölməsi və Azərbaycan tərəfinin də itkilər verməsi barədə yaydığı məlumat dezinformasiya xarakteri daşıyır.

Erməni silahlı qruplaşmaları arasındakı ziddiyyətlər və daxili çəkişmə nəticəsində ermənilərin bir-birini güllləbaran etməsindən sonra düşmən hər dəfə günahı Azərbaycan tərəfinin üzərinə atmaqla ictimaiyyətin diqqətini ordusunda baş verən neqativ hallardan yayındırmağa çalışır.

Hazırda Ermənistanın müxtəlif şəhərlərində hakimiyyətə qarşı başlayan kütləvi aksiyalardan qorxuya düşən Yerevanın cinayətkar hərbi-siyasi rejimi əhalinin diqqətini yayındırmaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin itkiləri və atəşkəs rejiminin intensiv pozulması haqqında mütəmadi olaraq məqsədyönlü surətdə dezinformasiya xarakterli məlumatlar yayır.

Müdafiə Nazirliyi rəsmi olaraq bildirir ki, Silahlı Qüvvələrimizin bölmələri cəbhəboyu əməliyyat şəraitinə tam nəzarət edir və müdafiənin ön xəttində yerləşən bölmələrimiz sutka ərzində heç bir itki verməyib.

* * *

***30 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 73 dəfə pozub.

Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskepar kəndində yerləşən mövqelərindən Qazax rayonunun Aşağı Əskipara kəndində, Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Göyarx, Yarımca, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Qaraqaşlı, Sarıcalı, Kəngərli, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

---

# Xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin növbəti buraxılışı



***İyunun 30-da Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin 2015-ci il buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.***

Mərasimdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələri - Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Ali Hərbi Dənizçilik və Təyyarəçilik məktəblərinin məzunları, Müdafiə Nazirliyinin rəhbərliyi, ictimaiyyətin nümayəndələri, məzunların yaxınları iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin və kursantların ifasında Azərbaycanın dövlət himni səsləndirilib.

Mərasimdə çıxış edən Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanov əlamətdar gün münasibətilə kursantları və onların valideynlərini Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib.

Sonra gənc leytenantlara diplomlar təqdim olunub.

Buraxılış tədbiri məktəbin şəxsi heyətinin təntənəli marşı ilə başa çatıb.

*(Tədbir haqqında məqalə qəzetimizin növbəti sayında geniş dərc ediləcək).*

**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 559
Nüsxə 4680